Sevinc AY



...Alnımdakı qırışları oxu,
Yaman uzun sətirdi...

* * *

Yazmaq istədiyim sətirlər
Yazılıb çoxdan.
Deyəsən, mən gecikmişəm.
Fikirləri yığıb beynimə
Özümə oxumuşam mən.

Misralar gəlib dilimə,
Dilimdə pıçıldayıb,
Gülmüşəm mən.
Qayğılara qarışıb başım,
Özümü unutmuşam mən.
Ağlımda yazdığım şeirləri
Zamanla itirmişəm mən.

* * *

Mən sənin əsərinəm,
Oxu məni!
Oxu gözlərimdəki narahatlığı,
Oxu üzümdəki gərginliyi.

Alnımdakı qırışları oxu,
Yaman uzun sətirdi.
Sətirləri bitirəndə
Qürur duy özündə!

Dağınıq saçlarımı
Toplamaq istəmirəm...
Bilirsən niyə?
Saçları sığallı, özü dağınıq
Birindən bezmişəm.

Sən belə yazmısan məni,
Gülüşü yarım, sevgisi yarım...
Yarım, yarım yazılan bütöv
Bir əsər.

* * *

Əlim dondu havada,
Gülüşüm dondu üzümdə.
Qəfil əridi gülüşüm,
Düşdü üzümdən.
Əllərim düşdü yanıma,
Saçlarım uçuşdu havada,
Ayaqlarım dirəndi yerə.
Nə idi bu ?
Heç özüm də bilmədim.
Bir anlıq sükut çökdü
Şəhərə .
Qəfil oyandım küçədə,
Sən demə, xatırlanırmış
Şəhidlər.

* * *

Çaylar axmağı sevir,
Göllər durmağı.
Külək coşmağı sevir,
Yarpaq əsməyi.
Bülbül gülü sevir,
Gül çiçəyi.
Arı şirəni sevir,
Şirə pətəyi.
Dağlar aranı sevir,
Aran dağı.
Atam anamı sevir,
Anam da atamı.
Özünü sevən yoxdu
Bir tək məndən savayı...